# KEÇİD MÜDDƏALARI
# MADDƏ 1-80



# KEÇİD MÜDDƏALARI

**1. AR-ın Konstitusiyası referendumla qəbul edildikdən sonra rəsmən dərc olunduğu gündən qüvvəyə minir. Bu Konstitusiyanın qüvvəyə mindiyi gündən 1978-ci il aprelin 21-də qəbul edilmiş AR-ın Konstitusiyası (Əsas Qanunu) qüvvədən düşür.**

**2. Bu Konstitusiyanın *qüvvəyə minməsinə qədər seçilmiş* AR-ın Prezidenti bu Konstitusiya ilə AR-ın Prezidentinə aid edilmiş səlahiyyətləri həyata keçirir.**

**3. Bu Konstitusiyanın 101-ci maddəsinin V hissəsi bu Konstitusiya qəbul edildikdən sonra seçilən AR Prezidentinə şamil edilir.**

**4. AR xalq deputatlarının və AR Ali Sovetinin yaratdığı MM-in səlahiyyətləri yeni seçilmiş AR MM-nin *ilk iclas günü başa çatır.* Yeni seçilmiş AR MM-nin ilk iclası AR MM-nin azı 83 deputatının seçildiyi gündən bir həftə sonra keçirilir. AR MM-nin ilk sessiyası 1996-cı il mayın 31-dək davam edir.**

**1995-ci il avqustun 15-də qəbul edilmiş "AR-ın MM-nə seçkilər haqqında" AR Qanununun 85-ci maddəsi bu Qanun əsasında seçilmiş AR MM-nin birinci çağırışının səlahiyyətləri bitənədək qüvvədədir.**

# KEÇİD MÜDDƏALARI

**5. AR-ın NK-si bu Konstitusiyanın qüvvəyə mindiyi gündən bu Konstitusiyada müəyyən edilən səlahiyyətləri həyata keçirir.**

**6. Bu Konstitusiya qüvvəyə mindiyi gündən AR yerli xalq Deputatları Sovetlərinin səlahiyyətlərinə xitam verilir. AR-ın qanunvericiliyi yerli xalq deputatları sovetlərinə aid edilmiş səlahiyyətləri yerli icra hakimiyyəti orqanları həyata keçirir.**

**7. Bu Konstitusiya qüvvəyə mindikdən sonra iki il müddətində yerli özünüidarə haqqında qanun qəbul edilməli və bələdiyyələrə seçkilər keçirilməlidir.**

**8. Bu Konstitusiyanın qəbul edildiyi günədək AR-ın ərazisində *qüvvədə olan qanunlar və başqa normativ hüquqi aktlar* bu Konstitusiyaya zidd olmayan hissədə öz qüvvəsini saxlayır.**

**9. Bu Konstitusiya qüvvəyə minənədək fəaliyyət göstərən AR-ın məhkəmələri ədalət mühakiməsini Konstitusiyada müəyyən edilən səlahiyyətlərə və prinsiplərə uyğun həyata keçirir.**

# KEÇİD MÜDDƏALARI

**10. Bu Konstitusiya qüvvəyə mindiyi gündən bir il ərzində *hakimlərin statusu, məhkəmə quruluşu və məhkəmə islahatı ilə əlaqədar* AR-ın bu Konstitusiyaya uyğun olan qanunvericiliyi qəbul edilməlidir və AR məhkəmələrinin hakimləri yenidən təyin edilməlidir. Həmin qanunvericilik qəbul edilənədək hakimlərin vəzifəyə təyin və vəzifədən azad edilməsi bu Konstitusiya qüvvəyə minənədək qüvvədə olan qanunvericilik əsasında həyata keçirilir.**

**11. Bu Konstitusiya qüvvəyə mindiyi gündən bir il müddətində AR-ın Konstitusiya Məhkəməsi haqqında AR-ın Qanunu qəbul edilməli və AR-ın Konstitusiya Məhkəməsi yaradılmalıdır. AR-ın Konstitusiya Məhkəməsi yaradılanadək bu Konstitusiyada nəzərdə tutulmuş AR Konstitusiya Məhkəməsinin səlahiyyətləri həyata keçirilmir. Bu Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 7-ci bəndində nəzərdə tutulmuş məsələni AR-ın Ali Məhkəməsi həll edir.**

**12. AR-ın Ali Arbitraj Məhkəməsi bu Konstitusiyanın qüvvəyə mindiyi gündən AR-ın *İqtisad Məhkəməsi adlanır* və qüvvədə olan qanunvericiliklə müəyyən olunmuş səlahiyyətləri həyata keçirir.**

**12 noyabr 1995-ci il**